**Dövlət büdcəsindən maliyyələşdirilən şəhərsalma işlərinin siyahısının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Azərbaycan Respublikası Prezidentinin "Şəhərsalmanın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1999-cu il 30 avqust tarixli, 187 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti **qərara alır:**

1. Dövlət büdcəsindən maliyyələşdirilən şəhərsalma işlərinin Siyahısı təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 13 iyul 2000-ci il
№ 120

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 13 iyul tarixli, 120 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Dövlət büdcəsindən maliyyələşdirilən şəhərsalma işlərinin**
**SİYAHISI**

1. Dövlət şəhərsalma norma və qaydalarının tərtibi.
2. Şəhərsalma proqramları və proqnozlarının hazırlanması və aparılması.
3. Rayon planlaşdırma sxemləri və layihələrinin tərtibi.
4. Dövlət şəhərsalma kadastrının yaradılması.
5. Sanatoriya-kurort, istirahət və turizm komplekslərinin baş sxemləri və layihələrinin tərtibi.
6. Xüsusi şəraitdə (ekoloji qəza, təbii fəlakət, zəlzələ, subasma və digər fövqəladə hallarda) ərazilərin məqsədyönlü bərpa proqramlarının hazırlanması.